# Azərbaycanda ekologiya məsələlərinin həllinə böyük diqqət

## *Ölkəmizdə ətraf mühitlə bağlı problemlərin həllində əldə olunan nailiyyətlər yüksək dəyərləndirilir*

**Respublikamızda iqtisadi, sosial-mədəni və digər sahələrdəki inkişaf ilə yanaşı, ətraf mühitin sağlamlaşdırılması məsələlərinə də böyük diqqət və qayğı göstərilir. İqtisadiyyatın sürətli inkişafı, o cümlədən milli neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi ekoloji problemlərin həllini tapması üçün gözəl imkanlar yaradır. Həyata keçirilən ardıcıl tədbirlər nəticəsində ölkəmizin ekoloji durumu əhəmiyyətli dərəcədə yaxşılaşıb.**

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində ekologiya sahəsində mühüm nailiyyətlər əldə edildiyini vurğulayan dövlət başçısı bildirib ki, son mühüm nailiyyət Böyükşor gölü ilə bağlıdır: "Avropa Oyunlarının açılış və bağlanış mərasimlərində yuxarıdan çəkiliş aparılarkən biz Böyükşor gölünün mənzərəsini də gördük. Gördük ki, bu, indi şəffaf, gözəl bir göldür. Vaxtilə bu, ekoloji fəlakət gölü idi. İkinci Dünya Müharibəsi zamanı ondan açıq neft rezervuarı kimi istifadə edirdilər. Ondan sonra kanalizasiya, lay suları, bütün zir-zibil bu gölə tökülürdü və onun yanında dayanmaq mümkün deyildi. Artıq Böyükşor gölünün bir hissəsi təmizlənib, gözəl bulvar salınıb, göz oxşayır. Bu göstərir ki, hər şeyi etmək mümkündür. Gərək sadəcə niyyət və istək olsun".**

Hazırda ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Biomüxtəlifliyin mühafizəsi, meşələrin inkişafı, geoloji kəşfiyyat, yaşıllıqların artırılması, içməli su ilə təminat, tullantıların və çirkab suların idarə olunması, neftlə çirklənmiş ərazilərin reabilitasiyası və s. istiqamətlərdə həyata keçirilən layihələr müsbət nəticələr verir. Ətraf mühitin sağlamlaşdırılması məqsədilə meşələrin salınması sahəsindəki göstəricilər ildən-ilə yaxşılaşır. Son illərdə əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirmiş, ekoloji təhlükəsizliyin təmin olunmasına zəmin formalaşdırmış, daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirmişdir. Uzun illər ərzində yaranmış ekoloji problemlər təhlil edilərək, onların kompleks həllinə yönəldilən və davamlı inkişaf prinsiplərinə əsaslanan milli və Dövlət proqramları təsdiq edilmiş və onların icrasına başlanılmışdır. Ölkədə mövcud qoruq və yaşıllıqların ərazisi genişləndirilərək milli parklar yaradılıb. Ətraf mühitin qorunmasının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilib.

Bu proqramların əsas məqsədi ətraf mühitin mühafizəsinə yönəldilmiş dövlət əhəmiyyətli investisiya layihələrinin sistemli və səmərəli şəkildə həyata keçirilməsini təmin etməkdən ibarət olub. Ətraf mühitlə bağlı qəbul olunan Dövlət proqramlarının uğurla reallaşdırılması, mövcud ekoloji problemlərin daha səmərəli həlli məqsədilə müvafiq sərəncamların imzalanması bu sahənin ölkəmizdə prioritet məsələlər sırasına qaldırılmasına çox yaxşı bir nümunədir.

Son illərdə ölkənin, o cümlədən Bakı və Abşeron yarımadasının yaşıllaşdırılması ilə bağlı müasir metodlara əsaslanan yaşıllaşdırma layihələri həyata keçirilib. 3600 hektardan artıq ərazidə 4,5 milyona yaxın ağac əkilib və müasir damcılı suvarma sistemləri ilə təmin olunub. Müxtəlif bölgələrdə 2100 hektar sahədə 1 milyon 200 mindən artıq əsasən xaricdən gətirilmiş daha məhsuldar və davamlı zeytun tingləri əkilib. Azərbaycanda tarixən yaradılmış zeytun bağlarından hazırda 900 hektara qədəri qorunub saxlanılıb. Son zamanlar əkilmiş zeytun ağaclarının hesabına onların sahəsi 3 dəfədən çox artıb. Yaşıllaşdırma tədbirlərinin effektivliyinin, o cümlədən suvarma imkanlarının artırılması məqsədilə Xəzər dənizinin suyunun duzsuzlaşdırılması üçün Salyan rayonunun Xıdırlı kəndində quraşdırılmış zavodda duzsuzlaşdırılmış su ətraf ərazilərdə salınmış yaşıllıqların suvarılmasında istifadə olunur. Hazırda kompleksə daxil olan müasir tinglikdə 300 mindən artıq ting və dekorativ gül yetişdirilir.

Azərbaycanda biomüxtəlifliyin qorunması, xüsusi mühafizə olunan təbiət ərazilərinin genişləndirilməsi məsələləri də uğurla həyata keçirilir. Biomüxtəlifliyin qorunması istiqamətində Heydər Əliyev Fondunun dəstəyilə reallaşan ceyranların tarixi ərazilərinə köçürülməsi layihəsi çərçivəsində 2014-cü ildə 12 baş ceyran Samux rayonunun ərazisinə buraxılıb. Bununla da ceyranların sayı 150 başa çatdırılıb. Xüsusi mühafizə olunan təbiət ərazilərinin beynəlxalq standartlara uyğun infrastrukturunun yaradılması istiqamətində 2014-cü il ərzində Şirvan Milli Parkının İnzibati binası və İnformasiya Mərkəzi əsaslı təmir olunaraq istifadəyə verilib. Hazırda Qızılağac Dənizkənarı Milli Parkın və Zaqatala-Balakən Biosfer Rezervatının formalaşdırılması istiqamətində iş gedir və bu prosesin yekunlaşması ilə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin təxminən 13 faizini təşkil edəcəkdir. Son illərdə həyata keçirilmiş ardıcıl tədbirlər nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 faizindən 10,3 faizinə qədər artırılıb. Bununla da 893 min hektarda 9 milli park, 11 qoruq və 24 yasaqlıq yaradılıb. Meşə ilə örtülü ərazilərin artırılması üçün 2014-cü ildə 10 min hektardan artıq sahədə meşəbərpa tədbirləri, o cümlədən 2640 hektar sahədə meşə əkini və səpini işləri yerinə yetirilib. 3,9 milyon ədəd ağac əkilib, 90 hektar sahəyə toxum səpilib, 65 hektar sahədə 2,6 milyon ədəd toxmacar, 18 hektar sahədə 8,6 milyon ədəd çilik basdırılıb, 28,3 milyon ədəd müxtəlif çeşiddə əkin materialları yetişdirilib.

2014-cü ildə su hövzələrində bioloji resursların artırılması istiqamətində də davamlı tədbirlər həyata keçirilib. İl ərzində 390,2 milyon ədəd müxtəlif növ vətəgə əhəmiyyətli balıq körpələri, o cümlədən 6,773 milyon ədəd nərəcinsli, 176 min ədəd qızılbalıq və 383,2 milyon ədəd çəki kimi balıq körpələri artırılaraq Xəzər dənizinə və digər su hövzələrinə buraxılıb. Hazırda Xıllı Nərə Balıqartırma zavodunda süni yetişdirilmiş 5000-dən artıq müxtəlif yaş qrupuna mənsub nərəcinsli balıqlardan ibarət təmir-törədici fond yaradılıb. 2014-cü il yaz-yay balıqartırma mövsümündə burada, Azərbaycanda ilk dəfə olaraq süni yetişdirilmiş ana balığı öldürmədən cərrahi əməliyyat vasitəsilə alınmış kürüdən balıq körpələri yetişdirilib. Beləliklə də dənizdəki ana balıq qıtlığından asılılıq getdikcə azalır. Ümumilikdə su hövzələrində bioloji resursların artırılması istiqamətində son 10 ildə 5 milyard ədədə yaxın balıq, o cümlədən nərəcinsli və qızıl balıq körpələri yetişdirilərək su hövzələrinə buraxılıb.

Məlumat üçün bildirək ki, Azərbaycan 2014-cü ildə Beynəlxalq Təbiəti Mühafizə İttifaqına üzv olub. Bakı şəhərində Mərkəzi Asiya və Qafqazda Balıqçılıq təsərrüfatı və akvakultura sahəsində Regional komissiyanın 3-cü iclası keçirilib. Ötən ildə Həştərxanda keçirilən Xəzəryanı ölkələrin dövlət başçılarının IV Sammiti çərçivəsində Xəzəryanı dövlətlərin müvafiq nazirlikləri tərəfindən Xəzər dənizinin hidrometrologiyası sahəsində əməkdaşlıq sazişi imzalanıb. 2014-cü ildə Bakı Expo Mərkəzində ətraf mühitin mühafizəsi üzrə 5-ci Yubiley Beynəlxalq Xəzər: ətraf mühit üçün texnologiyalar ("CTE 2014") sərgisi keçirilib. Bu sərgi 5 il ərzində Xəzəryanı və Qafqaz regionlarında ekologiya və ətraf mühitin mühafizəsi üzrə keçirilən mühüm tədbir statusu qazanıb. Bu illər ərzində 323 şirkət ekologiya üzrə ən yeni məhsullarını nümayiş etdirib. "CTE 2014" yubiley sərgisində 11 ölkəni, o cümlədən Azərbaycan, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İtaliya, İsveç, Rusiya, Türkiyəni təmsil edən 77 şirkət iştirak edib. Eyni zamanda Aşqabadda keçirilmiş Xəzər dənizinin ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının 5-ci Tərəflər Konfransı zamanı Konversiya Katibliyinin 2015-ci ildən Azərbaycanda yerləşdirilməsi qərara alınıb.

2014-cü il ərzində əhalinin ekoloji maariflənməsinə xidmət edən müxtəlif mövzularda 1500-dən artıq kütləvi tədbir həyata keçirilib. Ətraf mühit və təbii sərvətlərin milli dəyər kimi gələcək nəsillər üçün qorunub saxlanılması ideyalarının gənclər arasında təbliği, ekoloji maarifçiliyin, ekoloji təhsilin və təbiətə humanist münasibətin təşviqi, həmçinin yüksək ixtisaslı kadr heyətinin formalaşdırılması məqsədilə ali təhsil müəəssisələrində ətraf mühit sahəsində təhsil alan tələbələrdən ibarət "Ekoklub"lar yaradılıb.

Eyni zamanda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi İDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəxalq Dialoq) İctimai Birliyinin təşkil etdiyi layihələr ekoloji mühitin qorunmasında çox əhəmiyyətli tədbirlər həyata keçirib. İDEA İctimai Birliyinin təşəbbüsü, Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin təşkilati dəstəyi ilə ötən ilin mayında Heydər Əliyev Mərkəzində Qafqaz Biomüxtəlifliyi Sammiti keçirilib ki, bu da bəbir və digər pişikkimilərin mühafizəsi istiqamətində bilik və təcrübələrin bölüşdürülməsi, bu sahədə ən qabaqcıl və səmərəli vasitələrin tətbiqinin müzakirəsi əsas olub. Bütün keçirilin layihələrdə məqsəd gənclərin və beynəlxalq ictimaiyyətin diqqətini ətraf mühitin qorunmasına cəlb etməkdir.

Bütövlükdə ölkəmizdə bu sahədə əldə edilən uğurlara ətraf mühitlə bağlı tədbirlərdən başqa, davamlı inkişaf prinsiplərinə önəm verilməsi, ekoloji təmiz sənayenin və bərpa olunan enerji sektorunun inkişafı, enerji effektivliyinin artırılması hesabına, ən əsası isə Azərbaycanın öz resursları hesabına nail olunur.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**